Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əmək- haqqının artırılması haqqında" 2010-cu il 31 avqust tarixli 1078 nömrəli, "Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 6 sentyabr tarixli 1084 nömrəli, "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 13 sentyabr tarixli 1092 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və dövlət büdcəsindən maliyyələşdirilən digər elm və elmi tədqiqat müəssisə, idarə və təşkilatlarında çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 17 sentyabr tarixli 1097 nömrəli, "Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 17 sentyabr tarixli 1098 nömrəli, "Sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 21 sentyabr tarixli 1114 nömrəli, "Kənd təsərrüfatı, meşə təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya və balıqartırma sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2010-cu il 21 sentyabr tarixli 1115 nömrəli sərəncamlarının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 158-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləği bu qərarın 1 və 2 nömrəli əlavələrinə uyğun olaraq müəyyən edilsin.

2. "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 12 sentyabr tarixli 209 nömrəli qərarı (2-ci bənd istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar 2010-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***A.Rasi-zadə,***

***Azərbaycan Respublikasının Baş naziri***

***Bakı şəhəri, 27 sentyabr 2010-cu il***

***№ 166***

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2010-cu il 27 sentyabr tarixli 166 nömrəli qərarına

1 nömrəli əlavə

## Dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdə (Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan bölməsinin tabeliyində olan elm və elmi tədqiqat müəssisələri istisna olmaqla) çalışan işçilərin əməyinin ödənilməsinin

## Vahid Tarif Cədvəli

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 85 |
| 2 | 89 |
| 3 | 93 |
| 4 | 97 |
| 5 | 102 |
| 6 | 106 |
| 7 | 110 |
| 8 | 114 |
| 9 | 118 |
| 10 | 123 |
| 11 | 128 |
| 12 | 136 |
| 13 | 147 |
| 14 | 158 |
| 15 | 171 |
| 16 | 200 |
| 17 | 275 |
| 18 | 347 |
| 19 | 585 |

Aparatın rəhbəri - A.Hacıyev

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2010-cu il 27 sentyabr tarixli 166 nömrəli qərarına

2 nömrəli əlavə

## Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan bölməsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisələrində çalışan işçilərin əməyinin ödənilməsinin

## Vahid Tarif Cədvəli

| Əməyin | |
|---|---|

| ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 100 |
| 2 | 104 |
| 3 | 108 |
| 4 | 112 |
| 5 | 117 |
| 6 | 122 |
| 7 | 127 |
| 8 | 132 |
| 9 | 137 |
| 10 | 145 |
| 11 | 155 |
| 12 | 163 |
| 13 | 172 |
| 14 | 185 |
| 15 | 205 |
| 16 | 235 |
| 17 | 325 |
| 18 | 406 |
| 19 | 650 |

Aparatın rəhbəri - A.Hacıyev